ŞƏHLA TAHİRQIZI*

# AZƏRBAYCANIN ELMİ JURNALLARINDA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ARAŞDIRILMASINA DAİR

**Xülasə**

Azərbaycanda bir çox elmi jurnalların – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərlərinin, Bakı Universiteti Xəbərlərinin, "Dirçəliş – XXI əsr", Pedaqoji Universitetin Xəbərlərinin, "Geostrategiya" jurnallarının araşdırılması nəticəsində belə qənaətə gəlmək olar ki, bu jurnallarda Azərbaycan Dillər Universitetinin əməkdaşı N.Əsədov XIX əsrin birinci rübündə (1813-1828-ci illərində Azərbayca ərazilərinin müstəmləkə halına salınmasında erməni amilinin böyük rolu olmuşdur. ADPU-nun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru E.Məmmədova və Gəncə Dövlət Universitetinin əməkdaşı M.Tağıyeva Qarabağın tarixini rus məmurlarının məlumatları əsasında tədqiq etmişlər. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşlarından B.Həsənov XX əsrin əvvəllərində (1905-1906-cı illərdə) Yuxarı Qarabağda erməni seperatizmi və onların azərbaycanlılara qarşı törətdikləri soyqırımları, N.Məmmədov isə Qarabağın Ağdərə bölgəsinin tarixini, bu bölgənin Azərbaycanın ayrılmaz hissəsi olduğunu tarixi faktik materiallar əsasında tədqiqata cəlb etmişlər. N.Məmmədov eyni zamanda digər bir məqaləsində XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində mədəniyyətin inkişafı problemini işıqlandırmışdır. Gəncə Dövlət Universitetinin əməkdaşı G.Mustafayeva XX əsrin 80-90-cı illərində Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı əsir və girov götürülmüş azərbaycanlılara qarşı erməni faşistlərinin törətdikləri qanlı cinayətlərin hüquqi təhqiqini və onun gələcək beynəlxalq məhkəmə üçün zəmin olduğunu araşdırmış, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru A.Balayev Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində növbəti mərhələni (2003-2006-cı illəri), dosent E.Əhmədov Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektlərini şərh etmişlər.

**Açar sözlər:** *Azərbaycan, Ermənistan, münaqişə, Dağlıq Qarabağ, erməni separatizmi, erməni cinayətləri, soyqırım, erməni amili, müstəmləkəçilik siyasəti, nizamlanma prosesi.*

Azərbaycanın elmi jurnallarında tarixi mənbələr əsasında Qarabağın siyasi, iqtisadi, etnoqrafik məsələləri, onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiq edən maraqlı məqalələr çap olunmuşdur. Bu məqalələrdə XIX əsrin birinci rübündə (1813-1828-ci illərdə Azərbaycanda erməni amili, Qarabağın tarixinin rus məmurlarının məlumatları əsasında öyrənilməsi, XX əsrin əvvəllərində (1905-1906-cı illərdə) Yuxarı Qarabağda erməni separatizmi, Qarabağın Ağdərə bölgəsinin tarixi, XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində mədəniyyətin inkişafı, XX əsrin 80-90-cı illərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı əsir və girov götürülmüş azərbaycanlılara qarşı erməni faşistlərinin törətdikləri qanlı cinayətlər, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektləri və s. araşdırılmışdır.

---

* AMEA Mərkəzi Elmi Kitabxanasının icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent, *sehla-tahirqizi@mail.ru*

Elmi jurnallarda Qarabağın XIX əsr tarixi həmin dövrdə baş verən hadisələr kontekstində araşdırılmışdır. Bu baxımdan diqqəti cəlb edən E.K.Məmmədova və M.İ.Tağıyevanın "Pedaqoji Universitet Xəbərləri"ndə dərc etdirdikləri "Qarabağ tarixi rus məmurlarının məlumatlarında" məqaləsində göstərilir ki, qədim Qarabağ mədəniyyəti elmdə *Quruçay mədəniyyəti* (onun yaşı 1 milyon 200 min ildən artıqdır) adlandırılır və Qarabağ ən əski insan tipi olan azıxantropun məskəni olmuşdur. Məqalədə XIX əsrin birinci yarısında Qafqaz inzibati orqanlarında çalışan yerli və rus məmurlarının məlumat materialları əsasında Qarabağın qədim və orta əsr tarixi, onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu göstərilir, bölgənin iqtisadi həyatı, atçılıq təsərrüfatı, ipəkçiliyi, xalçaçılığı, ticarət həyatı araşdırılır. Müəlliflər Kürəkçay müqaviləsindən sonra Qarabağın Rusiya imperiyası tərəfindən ilhaq olunduğunu, erməni generalı V.Mədətovun Qarabağda rus-erməni müstəmləkə rejimi yaratdığını, ermənilərin məqsədyönlü və kütləvi şəkildə Qarabağa köçürüldüyünü qeyd etmiş, bu köçürmələrin acı nəticələrini tədqiq etmişlər. Qeyd olunur ki, *"Dünya ticarətində fəal iştirak edən erməni tacirləri Qarabağın Rusiyaya birləşdirilməsindən sonra bu əlverişli məkanda öz hegomonluqlarını həyata keçirmək arzusuna yenidən düşdülər*". [Məmmədova, Tağıyeva: 2010, s.87]

Müəlliflər rus məmurlarının materiallarına əsaslanaraq belə qənaətə gəlirlər ki, Qarabağ bütün dövrlərdə geostrateji əhəmiyyət kəsb edib: *"Məmurlar qeyd edirlər ki, əsrlər boyunca Şimalla Cənubun , Şərqlə Qərbin qovşağında olan bu bölgə Xəzərin "Çıxış qapısı" adlandırılır.Maraqlı odur ki, Qarabağ siyasətçilər tərəfindən indiyə qədər Azərbaycan, Ermənistan və İrana nəzarət edilə biləcək nöqtə kimi qiymətləndirilir."* [Məmmədova, Tağıyeva: 2010, s.87]

Məqalədə Rusiya imperiyasının inzibati ərazi bölgüsündə Qarabağ xanlığının parçalandığı qeyd edilir. XIX əsrin birinci yarısına dair rus məmurlarının materialları Qarabağı vahid bir sahə kimi göstərir... Həmin dövrdə Qarabağ xanlığının ərazisi Rusiyanın inzibati-ərazi bölgüsündə parçalanır. Bölgə *"1822-1840-cı illərdə mərkəzi Şuşa şəhəri olmaqla Hərbi müsəlman dairəsinə, komendant idarə üsuluna, 1840-1846-cı illərdə Qarabağ qəzasına, 1846-1860-cı illərdə Qarabağ qəzası əsasında Şuşa qəzasına,1868-1917-ci illərdə Şuşa torpaqları əsasında yaradılmış Şuşa, Cavanşir, Zəngəzur, Karyagin (Cəbrayıl) qəzalarına bölündü.*" [Məmmədova, Tağıyeva: 2010, s.90]

Tədqiqatçı N.Əsədov "Bakı Universitetinin Xəbərləri"ndə dərc etdirdiyi adı çəkilən məqaləsində Rusiya imperiyasının Cənubi Qafqazı, xüsusən Azərbaycanı işğal etdikdən və 1813-cü il Gülüstan müqaviləsindən sonra idarəedici qurumun – "Müsəlman əyalətləri hakimliyi" yaratdığını və ona qatı düşmən erməni əsilli knyaz Mədətovu təyin etdiyini göstərir. Məqalədə V.Mədətovun antimüsəlman fəaliyyəti, azərbaycanlıları Qarabağdan didərgin salması, XVIII əsrin sonlarından başlayaraq 1822-ci ildə Qarabağ xanlığının ləğv edilməsində Rusiya imperiyasına kömək etdiyi göstərilir.

General Mədətovun başçılıq etdiyi dəstə ilə Şimali Azərbaycana hücum edən Qacarın İran qoşunlarına qəfləti basqın etməsi, II Rusiya-İran müharibəsi zamanı ermənilərin ruslara yaxından kömək etmələri, ermənilərin antiazərbaycan fəaliyyəti faktik materiallarla sübut olunmuşdur: *"Ermənilər bütün vasitələrə əl ataraq, yerli azərbaycanlıların öz doğma torpaqlarını tərk etməsinə çalışır, eyni zamanda vaxtilə öz yurdlarını tərk etmiş azərbaycanlı əhalinin geri qayıtmasına da hər cür maneə törədirdilər"* [Əsədov: 2011, s.194].

Müəllif yekunda ermənilərin ruspərəst mövqeyini nəzərə alan çarizmin Türkmənçay müqaviləsi imzalandıqdan sonra Azərbaycanda özünün müstəmləkəçilik siyasətinin reallaşdırılması zamanı erməni amilindən istifadə etdiyini də diqqətə çatdırmışdır.

B.Həsənov adı çəkilən məqaləsində XX əsrin əvvəllərində (1905-1906-cı illərdə) Azərbaycanın Yuxarı Qarabağ bölgəsində erməni separatizminin tarixi köklərinin XIX əsrdə Rusiyanın Cənubi Qafqazı işğal etdikdən sonra ermənilərin Qarabağa məqsədyönlü köçürülməsinə gedib çıxdığını göstərir.

Məqalədən aydın olur ki, ruslar XX əsrin əvvəllərində Yuxarı Qarabağda erməniləri silahlandırmış, erməni-müsəlman qırğını törətmək üçün məkrli planlar hazırlamış, erməniləri azərbaycanlılarla qanlı müharibəyə təhrik etmişlər. Yuxarı Qarabağda başlayan qanlı soyqırım Cənubi Qafqazın bütün müsəlmanlar yaşayan bölgələrinə yayılmışdır. *"Bunlara baxmayaraq, azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin və rusların daha çox itki verməsinə nail olurdular"* [Həsənov: 2010, s.95].

Həmçinin, məqalədə Yuxarı Qarabağda erməni və ruslara qarşı vuruşmalarda Əhməd bəy Ağayevin yaratdığı "Difai" təşkilatının çox böyük xidmətlərinin olduğu vurğulanır.

N.R.Məmmədov "Bakı Universiteti Xəbərləri"nin 2011-ci il, 2-ci sayında "Ağdərənin tarixinə dair" məqaləsində göstərir ki, ermənilər xarici himayədarlarının köməyilə Azərbaycan SSR-in Dağlıq Qarabağ bölgəsində 1986-cı ildən separatçılıq fəaliyyətinə başladılar. Erməni "yazıçıları" tarixi saxtalaşdıran əsərlərlə ermənilərin şüurlarını zəhərlədilər, Azərbaycanın əzəli torpağı olan Qarabağı, onun ayrılmaz tərkib hissəsi olan Ağdərəni "erməni torpağı" kimi təqdim etdilər. *"Erməni alimlər Ağdərəni qədimdən Ermənistana aid ərazi hesab edərək, ermənilərin burada say üstünlüyü ilə çox olduqlarını vurğulamışlar. Faktlar isə bütün bunların ağ yalan, böhtan olduğunu təsdiq edir. Ağdərə Azərbaycanın qədim yaşayış məskənidir"* [Məmmədov: 2011, s. 160-161].

N.Məmmədov faktik materiallar əsasında ermənilərin "sosial-iqtisadi gerilik" konsepsiyasını ifşa etmiş, ensiklopediyalarda, Q.Qeybullayevin, akademik Y.Mahmudov və professor K.Şükürovun əsərlərində Ağdərə haqqında dərin tarixi, sosial-iqtisadi məlumatlar verildiyini diqqətə çatdırmışlar.

Azərbaycan tarixçiləri Q.Hacıyev, X.Xəlilov, N.Hacıyev Ağdərəni müxtəlif aspektlərdən araşdırmışlar.

G.Mustafayeva AMEA Naxçıvan Bölməsi Xəbərlərinin ictimai və humanitar elmlər seriyasında çap etdirdiyi məqaləsində XX əsrin 80-90-cı illərində Ermənistanın Azərbaycana hərbi təcavüzü, ermənilərin azərbaycanlı əsir və girovlara qarşı törətdikləri vandalizm və cinayət əməlləri, terror tədqiq edilmişdir. *"Aparılan filtrasiya tədbirləri, əsirlikdən qayıdanların dindirilmə prosesi nəticəsində əsarətdə olan Azərbaycan vətəndaşlarını alqı-satqı vasitəsinə çevirən, "Müharibə biznesi" üzrə ixtisaslaşmış cinayətkar erməni qrupları üzrə çıxarıldı*" [Mustafayeva: 2019, s.99].

Məqalədən aydın olur ki, əsir və girov Azərbaycan vətəndaşlarının qiyməti getdikcə artırılırdı. Bununla belə, ermənilər öz cinayətlərini azərbaycanlıların üzərinə yıxmış, Azərbaycana qarşı informasiya müharibəsini genişləndirmiş, erməni cinayətkar qrupları insan orqanlarını satmış, yüzlərlə əsiri işcəncə ilə öldürmüşlər.

N.Məmmədov "Bakı Universitetinin Xəbərləri"ndə dərc etdirdiyi "Azərbaycan SSR-in DQMV-də mədəniyyətin dinamik inkişafı (1970-1985-ci illər)" məqaləsində DQMV-nin göstərilən dövrdə ictimai-iqtisadi, mədəni və mənəvi həyatında inkişaf baş verdiyi faktlar əsasında təsdiq edilir. Qeyd olunur ki, Azərbaycan SSR-in dövlət büdcəsindən DQMV-nin inkişafı üçün milyonlarla vəsait ayrılmış, bölgədə təhsil, elm, maarif, məktəbəqədər müəssisələr, kitabxanalar, klublar, muzeylər tikilmişdir. [Məmmədov: 2011, s. 179 ].

Məqalədə qeyd edilir ki, Şuşa şəhərinin mədəni tərəqqisinə xüsusi diqqət yetirilmiş, Şuşada kurort kompleksi inkişaf etdirilmiş, şəhər tarixi memarlıq qoruğu elan edilmiş, məqbərələr tikilmiş, ev-muzeylər bərpa edilmişdir. Müəllif göstərir ki, 1978-ci ildə erməni əhalisinin xahişilə onların İranın Marağa şəhərindən Dağlıq Qarabağın Ağdərə bölgəsinə köçürülməsinin 150 illiyi münasibətilə abidə tikilmişdir. Ermənilər həmin abidəni 1985-ci ildə dağıtmışlar.

Bölgədə dram teatrı, həvəskar dram dərnəkləri, kütləvi informasiya vasitələri də mövcud olmuş, kadr potensialı gücləndirilmişdir.

E.Əhmədov "Geostrategiya" jurnalında çap etdirdiyi məqaləsində ermənilərin "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün XX əsrin 80-ci illərində yaranmış tarixi şəraitdən istifadə edərək Azərbaycan ərazilərini, o cümlədən Dağlıq Qarabağa iddia etdiklərini, Xüsusi İdarə Komitəsinin ermənipərəst fəaliyyətini, sovet rəhbərliyinin erməniləri himayə etmələrini, SSRİ dağıldıqdan sonra 1992-ci ildən Ermənistanın Dağlıq Qarabağ ərazisini işğal etdiyini, azərbaycanlıları soyqırımlara, etnik təmizləmələrə məruz qoyduqlarını faktik materiallar əsasında təhlil edir, ermənilərin öz havadarlarının köməyi ilə Xocalı soyqırımı törətdiklərini, 1993-cü ildə Dağlıq Qarabağ ətrafındakı rayonları da işğal etdiklərini göstərir: *"1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min kvadrat km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi"*yini qeyd edir [Əhmədov: 2010, s. 43].

E.Əhmədov həmçinin məqaləsində münaqişənin nizama salınmasına dair ATƏT-in Minsk Qrupunun yaradılmasını və onun fəaliyyətini, BMT-nin dörd qətna-

məsini, Lissabon, Budapeşt sammitlərinin ideyalarını, "Praqa prosesi", "Madrid prinsipləri", "Ümumi dövlət" prinsipi, Azərbaycan və Ermənistan prezidentlərinin danışıqlarını, "paket", "mərhələli həll" prinsiplərini təhlil etmişdir.

Müəllif Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektlərini, BMT nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyü çərçivəsində həll olunması zəruriliyini diqqətə çatdırır, münaqişənin həll olunmasında Azərbaycan dövlətinin mövqeyinin aşağıdakılardan ibarət olduğunu göstərir:

1.Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması yolverilməzdir;

2.Aparılan danışıqlarda Dağlıq Qarabağın erməni icması tərəf kimi iştirak edə bilməz;

3.Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağı və ayrılmaz tərkib hissəsidir;

4.Azərbaycanın ərazi bütövlüyü heç vaxt aparılan danışıqların mövzusu ola bilməz.

Beləliklə, Azərbaycanın elmi jurnallarında tarixi faktlar əsasında Qarbağın bir ərazi vahidi kimi əsrlər boyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu bir daha sübut edilir. XIX əsrdə Rusiya tərəfindən işğal edilən Qarabağ xanlığı imperiyanın müxtəlif inzibati-ərazı bölgülərinə daxil edilir. XX əsrin sonlarında yüksək inkişaf səviyyəsinə baxmayaraq, erməni icması guya siyasi, iqtisadi, mədəni ayrı-seçkiliyə məruz qaldıqlarını bəhanə gətirərək "öz müqəddəratlarını təyin " etmək pərdəsi altında ərazi iddiaları irəli sürdülər. Ermənistan himayədarlarının köməyilə əzəli Azərbaycan torpaqlarını işğal etdi. BMT-nin və bütün beynəlxalq qurumların səylərinə baxmayaraq, Qarabağ münaqişəsini dinc yolla həll etmək mümkün olmadı.Yalnız qəhrəman Azərbaycan ordusu ərazi bütövlüyümüzü bərpa etdi.

## ƏDƏBİYYAT

1.Balayev A. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində növbəti mərhələ (2003-2006-cı illər) //Dirçəliş-XX əsr. Mart-aprel № 143-144, 2010.

2.Əhmədov E. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun beynəlxalq-hüquqi aspektləri // Geostrategiya. №5, iyul.

3.Əsədov N.C. Azərbaycanın Qarabağ bölgəsində Rusiyanın müstəmləkəçilik siyasətinin həyata keçirilməsində erməni amili (1813-1828-ci illər) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2011, № 1, s. 194 (s.191-196).

4.Həsənov B. Yuxarı Qarabağda erməni separatizmi (1905-1906-cı illər) //AMEA Naxçıvan Bölməsinin Xəbərləri: İctimai və humanitar elmlər seriyası, 2010, № 3.

5.Məmmədov N.R. Ağdərənin tarixinə dair //Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, 2011, № 2.

6.Məmmədov N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində mədəniyyətin dinamik inkişafı (1970-1985-ci illər) // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, 2011, № 2.

7. Məmmədova E.K. və Tağıyeva M.İ. Qarabağ tarixi rus məmurlarının məlumatlarında // Pedaqoji Universitet Xəbərləri:.Humanitar elmlər seriyası, 2010, №3.

8.Mustafayeva G. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı erməni cinayətlərinin hüquqi təhqiqi gələcək beynəlxalq mühakimə üçün zəmindir // AMEA Naxçıvan Bölməsinin Xəbərləri: İctimai və humanitar elmlər seriyası, 2010, № 3.

**Shahla TAHIRGIZI**

**ON THE INVESTIGATION OF THE NAGORNO-KARABAKH CONFLICT IN AZERBAIJANI SCIENTIFIC JOURNALS**

**SUMMARY**

As a result of research of many scientific journals in Azerbaijan such as News of Nakhchivan Branch of Azerbaijan National Academy of Sciences, News of Baku University, “Revival - XXI century”, News of Pedagogical University, “Geostrategy”, it can be concluded that in these journals the employee of the Azerbaijan University of Languages N.Asadov studied the destructive role of the Armenian factor in the colonial policy of Azerbaijan in the first quarter of the XIX century (1813-1828), Doctor of Philosophy E.Mammadova and employee of Ganja State University M.Taghiyeva studied the history of Karabakh on the basis of sources such as information of Russian officials. B. Hasanov, an employee of the Institute of History named after AA Bakikhanov of ANAS, studied Armenian separatism in Upper Karabakh and their genocides against Azerbaijanis in Upper Karabakh in the early twentieth century (1905-1906), N.Mammadov studied the history of the Aghdara region of Karabakh, that this region is an integral part of Azerbaijan and they involved the subject in research based on historical factual materials. N. Mammadova also highlighted the problem of cultural development in the Nagorno-Karabakh Autonomous Region of the Azerbaijan SSR in the 70-80s of the XX century, the irreplaceable role of the national leader Heydar Aliyev in the cultural development of the Nagorno-Karabakh Autonomous Region of Azerbaijan in the 70-80s of the XX century in another article. G. Mustafayeva, an employee of Ganja State University, investigated the legal investigation into the bloody crimes committed by Armenian fascists against Azerbaijanis captured and held hostage during the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict in the 1980s and 1990s and laid the groundwork for a future international court. Leading researcher of the Institute of History named after A.A. Bakikhanov of ANAS, doctor of philosophy in history A.Balayev researched the next stage in the settlement of the Nagorno-Karabakh conflict (2003-2006), the determined political activity of President Ilham Aliyev, who entered the great policy, in the direction of the peaceful settlement of the Nagorno-Karabakh conflict, within the framework of Azerbaijan's territorial integrity and internationnal law. Doctor of Political Sciences, Associate Professor E.Ahmadov commented on the international legal aspects of the Nagorno-Karabakh conflict.

**Keywords**: *Azerbaijan, Armenia, conflict, Nagorno-Karabakh, Armenian separatism, Armenian crimes, genocide, Armenian factor, colonial policy, settlement process.*

Шахла ТАХИРГЫЗЫ

## О РАССЛЕДОВАНИИ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА В АЗЕРБАЙДЖАНСКИХ НАУЧНЫХ ЖУРНАЛАХ

### РЕЗЮМЕ

В результате исследования многих научных журналов в Азербайджане, таких как Новости Нахчыванского отделения Национальной Академии Наук Азербайджана, Новости Бакинского Университета, «Возрождение - XXI век», Новости Педагогического университета, «Геостратегия», можно сделать вывод, что в этих журналах сотрудник Азербайджанского университета языков Н.Асадов исследовал деструктивную роль армянского фактора в колониальной политике Азербайджана в первой четверти XIX века (1813-1828 гг.), доктор философских наук Э.Мамедова и сотрудник Гянджинского государственного университета М.Тагиева изучала историю Карабаха на основе таких источников, как информация российских официальных лиц. Сотрудник Института истории им. А.А. Бакиханова НАНА Б. Гасанов изучал армянский сепаратизм в Верхнем Карабахе и их геноцид против азербайджанцев в Верхнем Карабахе в начале XX века (1905-1906 гг.), Н. Мамедов изучал историю Агдаринский регион Карабаха, что этот регион является неотъемлемой частью Азербайджана, и они привлекли предмет к исследованию, основанному на исторических фактических материалах. Н. Мамедова также осветила проблему культурного развития Нагорно-Карабахской автономной области Азербайджанской ССР в 70-80-е годы XX века, незаменимую роль общенационального лидера Гейдара Алиева в культурном развитии Нагорно-Карабахской автономной области. Азербайджанский регион 70-80-х годов XX века в другой статье. Сотрудница Гянджинского государственного университета Г.Мустафаева проанализировала расследование кровавых преступлений, совершенных армянскими фашистами против азербайджанцев, взятых в плен и заложников во время армяно-азербайджанского нагорно-карабахского конфликта в 1980-х и 1990-х годах и заложила основу для будущего международного суда. Ведущий научный сотрудник Института истории имени А.А. Бакиханова из НАНА, доктор исторических наук А.Балаев исследовал следующий этап урегулирования нагорно-карабахского конфликта (2003-2006 гг.), Решительную политическую деятельность вступившего в великую политику Президента Ильхама Алиева в направлении мирное урегулирование нагорно-карабахского конфликта в рамках территориальной целостности Азербайджана и международного права. Доктор политических наук, доцент Э.Ахмадов прокомментировал международно-правовые аспекты нагорно-карабахского конфликта.

**Ключевые слова**: *Азербайджан, Армения, конфликт, Нагорный Карабах, армянский сепаратизм, преступления армян, геноцид, армянский фактор, колониальная политика, процесс урегулирования.*